*1 Oktyabr Beynəlxalq Ahıllar Günüdür*

# Ahıla hörmət milli dəyərlərimizdən qaynaqlanır

Körpəlik, uşaqlıq, gənclik, ahıllıq... Tanrının bölüb bəndələrinə bəxş etdiyi bu ömür məqamlarını yaşayanlar bəlkə də xoşbəxtdirlər. Axı, nağıl, yuxu kimi qısa görünən insan ömrü bəzən bax bu məqamların hər birində qırıla, kəsilə bilər, ömür yarıda qalar. Uşaqlığın sonu olan qocalıq çağına uzanan yolu isə hər kəs taleyinə yazıldığı kimi qət edir. Bəlkə də acı bir həqiqətdir, nə qədər uzun, dəyərli, gərəkli bir ömür yaşasa da insan bu dünyadan elə bu dünyaya gəldiyi halında köçür, çünki müəyyən yaş həddində əmək qabiliyyətli, normal insanlar belə özlərini yaşı keçmiş, qoca hesab edir, uşaq kimi kövrək olurlar. Ancaq insan hər yaşda möcüzə yarada bilir, əgər 95 yaşlı bir qarı akademiyaya qəbul olub tələbə həyatını yaşaya, 70 yaşlı bir qoca alpinistlik edib uca zirvələrə qalxa bilirsə, deməli hər bir yaşda yaşadığın cəmiyyətin fəal üzvü olmaq mümkündür.



Artıq iki əsrdən çoxdur ki, kimsəsiz uşaq və yaşlılar problemi bu dünyanı narahat etməkdədir. İnkişaf etmiş Qərb ölkələri bu məsələni müəyyən mənada həll etməyə çalışıblar. Sovet dönəmində Azərbaycanda da bu problem özünəməxsus şəkildə həllini tapıb. İmtina edilən uşaqların, ahılların internat və xüsusi evlərdə yerləşdirilməsi humanizm əlaməti kimi görünsə də, bu gün məsələnin həllinə başqa cür yanaşılır. Həmin kimsəsizlərin topluma qayıtması, onların himayədə yaşamaq vərdişlərinin aradan qaldırılması istiqamətində addımlar atılır. Hələlik isə bu kateqoriyadan olan vətəndaşlar tam dövlət təminatında yaşamaqdadırlar.

1 Oktyabr - Beynəlxalq Ahıllar Günü. Onu deyək ki, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qərarı ilə 1988-ci ildən etibarən bu tarix xüsusi qeyd edilir. Bu günün qeyd olunmasında məqsəd bu kateqoriyadan olan insanların sosial-məişət problemlərini, tibbi ehtiyaclarını öyrənmək və ictimaiyyətin diqqətini onların həllinə yönəltməkdən ibarətdir.

Azərbaycan Respublikasında tək ahıl vətəndaşlara 1982-ci ildən ictimai əsaslarla sosial xidmət göstərilməyə başlanılıb. 1984-cü ildən etibarən isə bu xidmət sosial işçilərə rəsmi qaydada əməkhaqqı ödəmək şərti ilə həyata keçirilir. Bir qayda olaraq rayon, şəhər əhalisinin sosial müdafiə mərkəzlərində tək ahıl vətəndaşlara müxtəlif növ sosial xidmət göstərilir. Tək ahıl vətəndaşlara sosial xidmətin bir növü onların internat evlərində dövlət hesabına yaşamalarıdır. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində olan bu tipli müəssisələrdə 500-dən artıq tək ahıl vətəndaş tam dövlət təminatında yaşayır. Onlara burada hər cür şərait yaradılmışdır. Bilgəhdəki Müharibə və Əmək Əlilləri üçün Pansionat da eyni taleyi yaşayan ahıl insanların dərd yükünü yüngülləşdirən, kimsəsizliklərini unutdurub bir-birinə doğmalaşdıran böyük bir ailədir. Pansionat ötən əsrin 60-cı illərində inşa edilmiş, uzun illər burada təmir işlərinin görülməməsi səbəbindən kompleksə daxil olan binalar yaşamaq üçün yararsız hala düşmüşdü.

2013-cü ildə ölkə başçısının sərəncamı ilə pansionatda yeni korpus tikilmiş, burada yenidənqurma işləri aparılmışdır. Belə ki, 7 hektar ərazi abadlaşdırılmış, ümumi sahəsi 10 min kvadratmetrdən çox olan yeni korpus tikilib sakinlərin ixtiyarına verilmişdir. Yeni korpusda 170 nəfərin yaşaması üçün hər cür şərait var. Mövcud korpus isə əsaslı təmirdən sonra 130 nəfərə xidmət göstərir. Beləliklə, burada 300 nəfərin yaşamasına şərait yaradılıb. Korpusdakı otaqlardan 160-ı birnəfərlik, 5-i isə ikinəfərlikdir. Hazırda pansionatda 241 nəfər yaşayır ki, onlardan 150-si qadın, 91-i kişidir.

2013-cü il oktyabrın 1-də pansionatın açılış mərasimində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva da iştirak etmiş, ahıl insanlarla görüşmüşdülər. Mərasimdə çıxış edən ölkə başçısı burada yaradılan şəraitdən danışmış, 1998-ci ildə ulu öndər Heydər Əliyevin pansionata gəlişini xatırladaraq demişdir: “Əslində belə də olmalıdır. Çünki Azərbaycanda veteranlara həmişə böyük hörmət olub. Ümumiyyətlə, cəmiyyətimizin çox möhkəm dayaqları vardır və dövlətimizin də əsasları milli dəyərlərdən ibarətdir. Azərbaycan cəmiyyətində bütün dövrlərdə yaşlı nəslə, ağsaqqallara, ağbirçəklərə böyük hörmət olubdur.

Biz bu ənənələri yaşatmışıq. Elə etməliyik ki, gənc nəsil də bu ruhda, milli ruhda böyüsün, milli dəyərlər əsasında öz həyatını qursun və sizdən nümunə götürsün. Siz Azərbaycan üçün, ölkəmiz üçün müxtəlif dövrlərdə böyük xidmətlər göstərmisiniz, işləmisiniz və bu gün ahıl yaşlarınızda dövlət tərəfindən təmin edilmisiniz.

Bu pansionatın yenidən qurulması, bax, belə müasir səviyyədə işlərin görülməsi Azərbaycan dövlətinin güclü sosial dövlət olduğunu təsdiqləyir. Mən bu barədə dəfələrlə fikirlərimi bölüşmüşəm, bir daha demək istəyirəm ki, dövlətimiz sosial dövlətdir. Sosial dövlət o dövlətdir ki, sosial sahəyə, insanlara böyük diqqət göstərilir və siyasətinin mərkəzində vətəndaş dayanır”.

Bəli, bu, həqiqətən belədir. Dövlətimizin bu sahəyə diqqət və qayğısını isə sosial müdafiəyə ehtiyacı olan hər bir kəs hiss edir. Müharibə və Əmək Əlilləri üçün Pansionatın sakinləri də qayğı ilə əhatə olunub. Burada sakinlər gündə bir neçə dəfə yeməklə təmin olunur, sağlamlıqlarının keşiyində dayanılır, istirahət etmək üçün tədbirlər həyata keçirilir. Tarixi günlər, milli bayramlarımız birlikdə qeyd olunur. Bura həmişə qonaqlı-qaralı olur, müxtəlif müəssisələrdən, ali və orta məktəblərdən gənclərin, yeniyetmələrin gəlişi isə sakinlərə böyük sevinc yaşadır.

Buradakı sakinlərin çoxu uzun müddətdir ki, pansionat həyatı yaşayır. Onların əksəriyyəti 1998-ci ildə Qurban bayramında ulu öndər Heydər Əliyevlə olan görüşü həmişə böyük minnətdarlıq hissi ilə xatırlayır. Pansionatın yeni korpusunun açılışına gəlmiş Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə olan görüşlərini də yəqin ki, uzun zaman unutmayacaqlar.

Bu il avqustun 16-da Birinci vitse-prezident Mehriban Əliyevanın Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə birgə qocalar evinə növbəti gəlişi, sözün həqiqi mənasında, bayrama çevrildi. Birinci vitse-prezident Mehriban Əliyeva burada yaşayanların şəraiti ilə maraqlanıb, onlarla söhbət etdi, xoş sözlərini söylədi.

Onu da deyək ki, qayğıya, köməyə ehtiyac duyan tək ahıl vətəndaşların problemlərinin həlli məsələsində müəssisə və təşkilatlar da fəal mövqedə dayanır. Bilgəh qəsəbəsindəki pansionat da uzun illərdir ki, Xəzər Dəniz Gəmiçiliyi tərəfindən hamiliyə götürülmüşdür. Müəssisənin kollektivi milli və dövlət bayramlarının geniş şəkildə qeyd olunması, buranın sakinlərinin həyat şəraitinin yaxşılaşdırılması, üzləşdikləri çətinliklərin aradan qaldırılması məsələlərində öz köməyini əsirgəmir. Xalq arasında “Qocalar evi” kimi tanınan pansionatın sakinləri ilə Xəzər Dəniz Gəmiçiliyinin kollektivi arasında böyük bir səmimiyyət, doğmalıq yaranıb. Buranın sakinləri hər bayramda onların yolunu səbirsizliklə gözləyirlər. Pansionatın rəhbərliyinin qaldırdığı hər bir məsələ operativ həllini tapır. Hamilik öz yerində, Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi gördükləri işin savab bir iş olduğunu çox gözəl dərk



edir, buraya pənah gətirib özünə yeni isti ocaq tapan, dünyanın hər üzünü görmüş insanlara maddi və mənəvi dəstək göstərməyi həm də müqəddəs borc bilir. Təbii ki, bütün bunlar dövlətimizin ahıl tənha insanlara diqqət və qayğısının təzahürüdür.

Əlil, tənha və ahıllara sosial xidmət bununla bitmir. Tək ahıl vətəndaşlar ehtiyac duyduqda sanator-kurort müalicəsi almaq üçün yollayışlarla təmin olunurlar. Bu yollayışlar onlara statusundan asılı olaraq müəyyən imtiyazlarla pulsuz verilir. Növbəlilik əsasında onlar avtomobillərlə təmin edilirlər. Tam dövlət təminatında olanlar isə internat və pansionatlarda bu qayğı və diqqəti daha çox hiss edir, qocalığı, tənhalığı, doğmalardan məhrum olduqlarını belə özlərinə dərd etmirlər.

Azərbaycan cəmiyyətində ağsaqqala, ağbirçəyə həmişə ehtiyac duyulur, odur ki, diqqətimizi də, qayğımızı da, mərhəmətimizi də onlardan əsirgəməməliyik...

**Zümrüd QURBANQIZI,**
**“Respublika”.**